# Qəbələdə sosial-iqtisadi inkişafın uğurları

## Sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələr müzakirə olunmuşdur

***2018-ci ilin birinci yarısında Qəbələ rayonunda görülən işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş geniş şura iclası keçirilmişdir.***

İyulun 8-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası ilə bağlı, həmin dövrdə Qəbələ rayonunda görülmüş işlər və qarşıda duran barədə geniş şura iclası keçirilmişdir. İyulun 12-də Qafqaz Sport Otelin konfrans zalında təşkil olunan iclasda rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhər, qəsəbə və kənd inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri iştirak etmişlər. İclası rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev açaraq gündəlikdə duran məsələləri elan etmişdir. Sonra Səbuhi Abdullayev 2018-ci ilin birinci yarısında rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər, cənab Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasındakı giriş və yekun nitqlərindən irəli gələn vəzifələr barədə ətraflı məruzə etmişdir **(məruzə qəzetimizin bu nömrəsində dərc olunur).** Məruzə ətrafında rayon suvarma sistemləri idarəsinin rəisi Qüdrət Həmidov və RQİİ-nin Qəbələ xidmət sahəsi üzrə rəis müavini Sübhi Bayramov çıxış etmişlər. Şura iclasını rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.





**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

# 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat MƏRUZƏSİ

**Hörmətli yığıncaq iştirakçıları, xanımlar və cənablar!**

İyulun 8-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

İclasda bu ilin birinci yarısında ölkəmizin uğurla və hərtərəfli inkişaf etdiyini, bütün sahələrdə dinamik inkişafın təmin edildiyini deyən cənab İlham Əliyev iqtisadi göstəricilərimizin müsbət olduğunu vurğulayıb.

İclasdakı giriş nitqində cənab İlham Əliyev aprel ayında keçirilmiş prezident seçkilərində Azərbaycan xalqının dövlətin siyasətinə çox böyük dəstək verdiyini deyib.

Ölkə başçısı iclasda bildirib ki, "Bizim siyasətimiz müstəqillik siyasətidir, inkişaf siyasətidir. Məhz bizim apardığımız siyasət nəticəsində Azərbaycan son 15 il ərzində çox böyük və şərəfli yol keçmişdir, bütün göstəricilərə görə dünya miqyasında çox yüksək yerlərdədir. Azərbaycanda gedən demokratik proseslər dünya birliyi, dünyanın aparıcı dövlətləri tərəfindən yüksək qiymətləndirilir".

Xarici siyasətimizin uğurlarından danışan cənab Prezident qeyd edib ki, bu ilin altı ayında bu sahədə böyük işlər görülüb, Azərbaycan beynəlxalq əlaqələrini möhkəmləndirə bilib. Qonşu dövlətlərlə olan ənənəvi dostluq, strateji tərəfdaşlıq əlaqələri genişləndirilib. Həmçinin ölkəmizin müsəlman aləmində çox böyük hörmətə, nüfuza malik olması bu əlaqələri daha da inkişaf etdirib, Naxçıvanın isə 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı seçildiyi qeyd olunub.

İndi Avropa İttifaqı ilə yeni Saziş üzərində işlənildiyini nəzərə çatdıran cənab Prezident Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsi ilə Azərbaycanın strateji tərəfdaşlığı haqqında sənədlərin olduğunu vurğulayıb.

Dövlətimizin başçısı qeyd edib ki, bu ilin birinci yarısında Azərbaycanın beynəlxalq əlaqələri yeni mərhələyə yüksəlib.

Ermənistanda isə 20 il ərzində formalaşmış kriminal, korrupsioner hakimiyyətin tam iflasa uğradığını, və rejimin biabırçılıqla siyasi səhnədən qovulduğunu söyləyib. Cənab İlham Əliyev Ermənistanda yeni hökumətin kriminal rejimin səhvlərini təkrarlamayacağına, münaqişənin həlli ilə bağlı konstruktiv mövqe tutacağına və münaqişənin tezliklə həllini tapacağına, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcəyinə əminliyini bildirib.

İclasdakı giriş nitqində ölkəmizdə əvvəlki illərdə və bu il aparılan islahatların gözəl nəticələr verdiyini vurğulayan Prezident ilin birinci yarısının inkişaf göstəricilərini diqqətə çatdırıb: Altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz artıb. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorumuz 2 faiz artıb. Sənaye istehsalı 1 faiz artsa da, bu da məqbul rəqəmdir. Qeyri-neft sənayemiz 8,8 faiz artıb. Bu, onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar, sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir. Kənd təsərrüfatı 7,6 faiz artıb. Bitkiçilik 14 faizdən çox artıb. 67 min yeni iş yeri yaradılıb. Onlardan 58 mini daimi iş yeridir. Ölkə iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulub. İnflyasiya cəmi 3 faizdir. Əhalinin pul gəlirləri 9,3 faiz artıb. İnflyasiyanın aşağı səviyyədə olması onu göstərir ki, ölkəmizdə makroiqtisadi sabitlik tam təmin edilir".

Cənab İlham Əliyev deyib ki, xarici ticarət dövriyyəsi 35 faiz artıb. İxrac 34 faiz, o cümlədən qeyri-neft ixracı 20 faiz artıb. Xarici ticarətin müsbət saldosu 4,2 milyard dollardır. Bu bir daha onu göstərir ki, ölkədə makroiqtisadi sabitlik tam təmin edilir. İlin əvvəlindən valyuta ehtiyatlarımızın da artdığını və bu gün valyuta ehtiyatlarının 44,3 milyard dollar təşkil etdiyi qeyd olunub.

İnkişafımızın təməlində düşünülmüş siyasətin, güclü iradənin, eyni zamanda güclü iqtisadiyyatın dayandığı qeyd edilən giriş nitqində bu gün heç kimdən asılı olmayan, öz taleyinin sahibi olan və bütün sahələrdə böyük uğurlar əldə edilən güclü dövlətçilik ənənələrinin mövcud olduğu vurğulanıb.

Ölkə başçısı tərəfindən qazlaşdırmanın bu ilin sonuna qədər 95 faizə çatacağı, içməli su layihələrinin icrasının, avtomobil yollarının tikintisinin davam edəcəyi qeyd olunub. Diqqətə çatdırılıb ki, bu il plana görə 2 min kilometr yeni avtomobil yolu salınmalıdır və minimum 600 kənd yeni yollarla təmin edilməlidir.

Cənab İlham Əliyev bildirib ki, sosial infrastrukturların inkişafı ilə bağlı 2018-ci ildə 137 modul tipli məktəb, 6 xəstəxana tikilib istifadəyə verilməli, 12 məktəb əsaslı təmir edilməlidir. Eləcə də ilin sonuna kimi 2 Olimpiya İdman Mərkəzi açılmalı, 4 min məcburi köçkün ailəsi yeni evlərlə təmin edilməlidir.

İclasda cənab Prezident sənayenin inkişafı ilə bağlı yaxın gələcəkdə iki böyük zavodun işə düşəcəyini və həmin zavodların həm daxili bazarı tam təmin edəcəyi, idxaldan asılılığı aradan qaldıracağı, eyni zamanda böyük ixrac imkanı yaradacağını deyib.

**Hörmətli toplantı iştirakçıları!**

2018-ci ilin ötən dövrü ölkəmiz üçün bütövlükdə siyasi baxımdan əlamətdar olmuşdur.

Belə ki, aprelin 11-də müstəqil Azərbaycanın müasir tarixində növbəti böyük siyasi hadisə olan Prezident seçkiləri keçirilmişdir.

Yüksək demokratik şəraitdə keçirilən seçkilərdə müdrik xalqımız növbəti dəfə Heydər Əliyev siyasi kursuna, inkişafa, tərəqqiyə, sabitliyə, ölkəmizin firavan gələcəyinə səs vermiş, bütün uğurlarımızın səbəbkarı, xalqın sevimli oğlu möhtərəm cənab İlham Əliyev 86,2 % səs çoxluğu ilə növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

**Hörmətli toplantı iştirakçıları!**

2018-ci ilin birinci yarısı Qəbələ rayonunun da ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaddaqalan olmuşdur.

2018-ci ilin altı ayı ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 95.157,0 min manatlıq məhsul istehsal edilmiş, ötən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı rayon üzrə 28.123,0 min manat, yaxud 41,9 % artmışdır. Keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 11.899,0 min manat, yaxud 82,4 %, kənd təsərrüfatında 652,0 min manat, yaxud 2,8 %, tikintidə 14.624,0 min manat, yaxud 3,5 dəfə, nəqliyyatda 61,0 min manat, yaxud 3,2 %, rabitədə 49,0 min manat, yaxud 9,4 %, ticarətdə 838,0 min manat, yaxud 3,9 % artmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 898 manat təşkil etmişdir.

Yarım il ərzində sənaye müəssisələrində çalışan 1.377 nəfər işçinin orta aylıq nominal əmək haqqı 380 manat olmuşdur.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 21.184,0 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 20.457,0 min manat təşkil etmişdir.

2003-cü ilin oktyabr ayından 1 iyul 2018-ci ilədək 15.398-i daimi olmaqla, 17.197 yeni iş yeri açılmışdır. Altı ay ərzində açılmış yeni iş yerlərinin sayı 491 olmuşdur ki, həmin iş yerlərinin hamısı daimidir.

Qəbələ Rayon Məşğulluq Mərkəzində işaxtaran kimi qeydiyyatdan keçmiş 1.135 nəfərdən 452 nəfəri münasib işlə təmin edilmişdir.

Respublikada yeni yaradılmış

**(Ardı 4-cü səhifədə).**